**ƏMR EDİRƏM:**

1. 20 Yanvar faciəsinin iyirmi üçüncü ildönümünün keçirilməsi ilə əlaqədar Təhsil Nazirliyinin tədbirlər planı təsdiq edilsin (əlavə olunur).

2. Tədbirlər planına müvafiq olaraq bütün təhsil müəssisələrində 10-18 yanvar tarixlərində Azərbaycanın azadlığı uğrunda mübarizədə həlak olmuş şəhidlərin xatirəsinə həsr olunmuş geniş tədbirlər həyata keçirilsin.

3. Yerli təhsili idarəetmə orqanlarının rəhbərləri görülmüş işlər barədə 25 yanvar 2013-cü il tarixinədək Nazirliyə hesabat təqdim etsinlər.

4. İctimaiyyətlə əlaqə şöbəsi (B. Hüseynzadə) əmri "Azərbaycan müəllimi" qəzetində dərc etdirsin, tədbirlər planı ilə birlikdə Nazirliyin internet səhifəsində yerləşdirsin.

5. Ümumi şöbə (X. Fərəcov) əmr və tədbirlər planının çoxaldılıb yerlərə göndərilməsini təmin etsin.

6. Əmrin icrasına nəzarət nazir müavini Q. Novruzova həvalə olunsun .

Əsas: Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin 119 nömrəli, 19 dekabr 2012-ci il tarixli Sərəncamı

***Misir MƏRDANOV,***

***Azərbaycan Respublikasının təhsil naziri***

***7 yanvar 2013-cü il***

***№ 11***

---

**Əlavə**

20 Yanvar faciəsinin iyirmi üçüncü ildönümünün keçirilməsi ilə əlaqədar Təhsil Nazirliyinin tədbirlər planı